**10.05.2024г. 2 «а» курс. 44.02.02. Azərbaycan dili**

**Mövzü: Felin quruluşca növləri.**

Fellər öz quruluşuna görə sadə, düzəltmə və mürəkkəb olur.

**1.Sadə fellər** əsas fellərdir, heç bir leksik şəkilçisi olmur.Məsələn: *aldı, gəldi, gördülər,demişdi və s*

**2.Düzəltmə fellər** adlara leksik şəkilçilər artırmaqla düzəlirlər.Belə fellər isimlərdən, sifətlərdən, saylardan əmələ gəlir.

a) isimlərdən; -la,-lə; -laş,-ləş; leksik şəkilçiləri ilə;Məsələn*: dişlədi, gözlədi,ayaqladı, dostlaşdılar, salamlaşdı, məktublaşdı və s.*

b)sifətlərdən; -ar,-ər; -al,-əl; -laş,-ləş; leksik şəkilçiləri ilə; Məsələn*: ağardı, göyərdi, saraldı,bozardı,qaraldı,yaşıllaşdı, gözəlləşdi və s.*

c)saylardan; -al,-əl; -laş,ləş; leksik şəkilçiləri ilə;Məsələn: *azaldı, çoxaldı, birləşmək, cütləşdilər və s.*

**3.Mürəkkəb fellər** ən azı iki sözün birləşməsi ilə əmələ gəlir.

a)"olmaq" və "etmək"köməkçi felləri adlara qoşulur və mürəkkəb fel əmələ gətirir. Məsələn: *dost olmaq, tanış olmaq, kömək etmək, fikir eləmək və s.*

b)Sinonim və antonim sözlər də mürəkkəb fel olur və düfislə yazılırlar.Məsələn: *bəzənib-düzənmək, atılıb-düşmək, yazıb-oxumaq , deyib-gülmək və s.*

c)Frazeoloji birləşmələr də mürəkkəb fel olur.Məsələn*: zəhləm getdi, mısmırığın salladı, gəmiləri batıb, çaşıb qaldı, qanad açdı və s.*

**Çalışma.** Cümlələrdəki felləri tapın, quruluşca növünü deyin.

1.Ruzisi gələn zaman köpəyi yuxu tutar. 2.Karvan sahibi dəvəni orada qoyub yola düşdü. 3.Kasıb öləndə molla xəstə olar. 4.Sirkə tünd olanda öz qabını sındırar.

**Məsdər**

Məsdər felin təsriflənməyən formasıdır.(Не определенная форма глагола) , Yə`ni zamana və şəxsə görə dəyişməyən formasıdır.Məsdər hərəkətin adını bildirir, -maq,-mək şəkilçiləri ilə düzəlir, nə etmək, nə olmaq və nə suallardan birinə cavab verir.Məsdər hərəkətin bütöb və əsas formasını bildirir. Cümlədə əsasən, mübtəda, tamamlıq, zərflik və xəbər olur. Məsələn: 1. *Yaşar imlanı yazmağa başladı.2.Danışmaq gümüşdür, susmaq qızıl.* 1-ci cümlədəki məsdər-*yazmağa* tamamlıq rolunda çıxış edir. 2-ci cümlədəki *danışmaq* və *susmaq* məsdərləri cümlənin mübtədası rolundadır.

Məsdər ikili xarakter daşıyır. O, həm felin, həm də ismin xüsusiyyətlərini özündə birləşdirir. **İsim kimi** –nə sualına cavab verir, hallanır və mənsubiyyətə görə dəyişir.Məsələn:

*Adlıq gülmək, danışmaq*

*Yiyəlik gülməyin, danışmağın*

*Yönlük gülməyə, danışmağa*

*Təsirlik gülməyi, danışmağı*

*Yerlik gülməkdə, danışmaqda*

*Çıxışlıq gülməkdən, danışmaqdan.*

***Mənsubiyyətə görə dəyişir**. Məsələn:*

| *Tək* | *cəm* |
|---|---|
| *I şəxs mənim oxumağım* | *bizim oxumağımız* |
| *II şəxs sənin oxumağın* | *sizin oxumağı* |
| *III şəxs onun oxumağı* | *onların oxumağı* |

(Misallardaki –q-nın ğ-ya; k-y-ya çevrilməsinə fikir verin, onu izah edin).**Məsdər fel kimi** hərəkətin adını bildirir, əsası, kökü feldir, təsdiq və inkar olur( gəlmək, gəlməmək), təsirli və təsirsiz olur (oxumaq-nəyi, təsirli, gülmək-nəyə, təsirsiz),aktiv və passiv olur, ətrafına söz yığır və tərkib əmələ gətirir. Heç vaxt forma, zaman şəkilçilərini götürmür. Məsələn: gəlmək- nə etmək, təsdiq, təsirsiz, aktiv. **Çalışma.** “duymaq” və “düşünmək” məsdərlərini hallandırın və mənsubiyyətə görə dəyişin.